**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN FOLKLORUNDA ÇEVRİLMƏ MOTİVİ

İxtisas: 5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Əsmər Şakir qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, dosent
**Ramazan Oruc oğlu Qafarlı**
Filologiya elmləri doktoru, professor
**Yeganə Nəhmətulla qızı İsmayılova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Aynur Sədrəddin qızı Xəlilova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya üzrə elmlər doktoru, professor
________________________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
________________________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
________________________ **Əfzələddin Dağbəyi oğlu Əsgərov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan folklorunda çevrilmə motivinin bir problem kimi tədqiqi milli folklorşünaslıq elminin aktual vəzifələri sırasına daxildir.

Problemin aktuallığı, ilk növbədə, bu motivin Azərbaycan folklor mətnlərində zənginliyinə rəğmən, folklorşünaslıqda sistemli şəkildə tədqiq olunmamasından irəli gəlir. Folklorumuzun bəzi janrlarında (xalq inamları, yozumlar, sınamalar, miflər, əfsanələr, nağıllar və dastanlarda) geniş təsadüf olunan çevrilmə motivindən müxtəlif mövzulu tədqiqat işlərində çevrilmə obyektləri ilə bağlı qısa şəkildə bəhs edilməsinə baxmayaraq, müstəqil predmet kimi tədqiqata cəlb olunmamışdır.

Özünün çoxəsrlik inkişafı tarixində Azərbaycan xalqı özəyini bədii söz sənəti təşkil edən, məna, məzmun, motiv, eləcə də süjet baxımından zəngin, qədim və əvəzolunmaz mədəniyyət yaratmışdır. Şifahi olaraq formalaşmış, mahiyyətində xalqımızın bütün ənənə və mədəni-mənəvi dəyərlərini əks edən, keçmişimizi qoruyub yaşadan bu nadir incilər-mətnlər folklor abidələri hesab edilir. Təbii ki, folklor mətnlərində bu əlamətlərin kompleks şəkildə mövcudluğu onun zəngin struktura malik olmasının göstəricisidir. Bu motivlərdən biri də özünəməxsus çalarları ilə mədəni irsimizi zənginləşdirən çevrilmə motividir. İnsan şüurunun yaradıcı gücündən meydana çıxan arzuların ifadəsi və xəyal gücünün məhsulu olan çevrilməyə Azərbaycan, eləcə də dünya xalqlarının mif və əfsanələrində mifik yaradılış formulu kimi tez-tez təsadüf edilir. Belə ki, çevrilmə bir çox nümunələrdə kosmoqonik yaradılışın gerçəkləşməsinə xidmət etmişdir.

Çevrilmə, əslində, mənsub olduğu etnosa dair elementləri özündə ehtiva edən bir simvoldur. Çevrilmə ümumbəşəri xarakterli olmaqla, müxtəlif mədəniyyətə sahib xalqların folklorunda eyni mənaya işarə etmir, hər xalqın dünyagörüşünə uyğun özünəxas məna daşıyaraq, mahiyyətində məhz həmin etnosun, xalqın mədəniyyət elementlərini əks etdirir. Buna görə, folklor nümunələrimizdəki bu simvolların xalqımızın hansı adət-ənənəsinə və inancına işarə etdiyini

tədqiq etmək günümüzün ən əhəmiyyətli və aktual məsələlərindən hesab olunur.

Problemə onun predmetini təşkil edən bəzi çevrilmə və şəkil dəyişmə faktları nöqteyi-nəzərindən bir sıra araşdırma əsərlərində rast gəlinir. Xüsusilə, əfsanələrdəki müxtəlif çevrilmələr tədqiqatçıların diqqətini cəlb etmiş və onlar öz araşdırmalarında bu mövzuya toxunmuş, eləcə də məqalələrində bəhs etmişlər. Bu tədqiqatların əksəriyyətini birləşdirən cəhət faktların fraqmentarlığı, yəni çevrilmə motivinin tip və şəkillərini sistemli şəkildə əhatə etməmələridir. Miflərin, əfsanələrin və nağılların xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş bəzi araşdırmalarda çevrilmə ilə bağlı faktların dərin analizinə rast gəlinməsinə baxmayaraq, "Azərbaycan folklorunda çevrilmə motivi" bir problem kimi indiyədək xüsusi olaraq heç bir monoqrafik tədqiqatın predmeti olmamışdır.

Dissertasiyada çevrilmə motivi, əsasən, epik materiallar əsasında tədqiq olunmuşdur. Bu cəhətdən, dissertasiyanın nəzəri-metodoloji bazasını, əsasən, Məmmədhüseyn Təhmasib, Mirəli Seyidov, İsrafil Abbaslı, Bəhlul Abdulla, Ağayar Şükürov, Azad Nəbiyev, Muxtar Kazımoğlu, Paşa Əfəndiyev, Kamran Əliyev, Məhərrəm Cəfərli, Seyfəddin Rzasoy, Əfzələddin Əsgər, Füzuli Bayat, Ramazan Qafarlı, Cəlal Bəydili (Məmmədov), Ramil Əliyev, Mahmud Allahmanlı, Səhər Orucova, Yeganə İsmayılova, Oruc Əliyev, Qalib Sayılov, Rüstəm Kamal, Etibar Talıblı, Kəmalə İslamzadə, Məhəmməd Məmmədov, Sərxan Xavəri, İlkin Rüstəmzadə[1] və başqa Azərbaycan

---

[1] Təhmasib, M. Seçilmiş əsərləri. 2 cilddə. I cild / – Bakı: Mütərcim, – 2010. – 488 s.; Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. – Bakı: "Elm və təhsil – 1", – 2018. – 444 s.; Abbaslı, İ. Əfsanələr (oçerk) / Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. I cild. / İ.Abbaslı. – Bakı: Elm, – 2004. – s. 207-210.; Abdulla, B. Haqqın səsi / B.Abdullayev. – Bakı: Azərnəşr, – 1989. – 144 s.; Şükürov A. Mifologiya. Qədim türk mifologiyası. VI kitab / A.Şükürov. –Bakı: Elm, – 1997. – 228 s. Nəbiyev, A. Azərbaycan xalq ədəbiyyatı. I-II hissə / A.Nəbiyev. – Bakı: Elm, –2006. – 648 s., 680 s.; Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi / M.Kazımoğlu. – Bakı: Elm, – 2011. – 228 s.; Əfəndiyev, P. Azərbaycan şifahi xalq ədəbiyyatı / P.Əfəndiyev. – Bakı: Maarif, – 1992. – 477 s.; Cəfərli, M. Dastan yaradıcılığı / M.Cəfərli. –Bakı: Elm, –2007. – 108 s.; Əliyev, K. Açıq kitab – "Dədə Qorqud"/ K.Əliyev. – Bakı: Elm və təhsil, – 2015. – 116 s.; Rzasoy, S.

alimlərinin öz tədqiqatları ilə epik folklorun araşdırılması sahəsində yaratdıqları nəzəri və metodoloji təcrübə təşkil edir.

Dünya alimləri tərəfindən geniş tədqiq olunmuş, istər şifahi xalq ədəbiyyatında, istərsə də yazılı ədəbiyyatda mövcud olan çevrilmələrin hər birində bir formadan digərinə keçmək, şəklini, görkəmini dəyişmək əsas mahiyyət daşıyır. Hələ eradan əvvəl yaşamış Roma şairi Ovidinin (e.ə.43-18) hekzametr ölçüsündə, 15 kitabdan ibarət olan məşhur "Metamorfozlar" əsərində qədim roma və yunan mifologiyasında mövcud olmuş 250-dən çox mif haqqında məlumat verilmişdir ki, onların mövzularında çevrilmələr mühüm yer tutmuşdur. Burada dünyanın mövcud olmamışdan öncə xaos

---

Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi / S.Rzasoy. – Bakı: Elm və təhsil, –2015. – 436 s.; Əsgər, Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman/ Ə.Əsgər. – Bakı: Elm və təhsil, – 2017. – 116 s.; Bayat, F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı /F.Bayat. – Bakı: Sabah, –1993. –194 s.; Qafarlı, R. Mif və nağıl. Epik ənənədə janrlararası əlaqə / R.Qafarlı. – Bakı: Yazıçı, – 1999.; Bəydili, (Məmmədov) C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya / C.M.Bəydili. – Bakı: Mürtəcim, – 2007. – 272 s.; Əliyev, R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları / R.Əliyev. –Bakı: Elm, – 2014. – 332 s.; Allahmanlı, M. Dastanlarda qəhrəman tipologiyası, bahadır və sənətkar problemi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. – X kitab. – Bakı: Səda, – 2001. – s. 84-91; Orucova, S. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri / S.Orucova. – Bakı: Elm və təhsil, –2012. – 536 s.; İsmayılova, Y. "Koroğlu" dastanında obrazlar sistemi / Y.İsmayılova. –Bakı: Nurlan, –2003. –174 s.; Əliyev, O. Azərbaycan nağıllarının poetikası/ O.Əliyev. – Bakı: Səda, – 2001. – 192 s.; Sayılov, Q. Mərasim folklorunun janr xüsusiyyətləri // Folklorşünaslıq məsələləri, – Bakı: 2012. №10, –s.13-17; Расулов, Р.К. Мифоритуальные превращения в поэтике «Книги моего Деда Коркуда»– http://jurnal.org/articles /2009/fill55.html; Talıblı, E. Nailə ananın söylədikləri (Qubadlı bölgəsi: etnoqrafiya, folklor, dil örnəkləri) / E.Talıblı. – Bakı: Elm və təhsil, –2020. –392 s.; İslamzadə, K. Mərasimlərin və epik janrların tərkibində yasaqlar // – Bakı: Filologiya məsələləri, – 2018. №19, –s. 3-14.; Məmmədov, M. Azərbaycan nağıllarında dönərgəlik (çevrilmə) // Azərbaycan filologiyasının aktual problemləri mövzusunda elmi-nəzəri konfransın materialları. –Bakı, –18-19 may, – 2011. – s. 31-43.; Xavəri, S. Əfsanələrin funksional semantikasında yaradılış arxetipi / S.Xavəri. – Bakı: "Dil və ədəbiyyat" beynəlxalq elmi-nəzəri jurnal, – 2018. № 2 (106). – s. 186-189; Rüstəmzadə, İ. Azərbaycan nağıllarının süjet göstəricisi /İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, – 2013. – 368 s.

formasında olması, daha sonra torpağın, göyün, dənizlərin, insanların və s. yaranmasından bəhs edilməklə yanaşı, yunan mifologiyasında ulduza, dağa, qayaya, bulağa, gülə, ağaca, quşa və s. çevrilən mifoloji varlıqlar, onların hansı səbəblərdən çevrilməyə məruz qalması haqqında çox zəngin miflər, hekayələr[2] (Apollonun Pitonu öldürməsi, sevdiyi Dəfnənin isə dəfnə ağacına çevrilməsi; Yupiterin ulduza, buğaya çevrilməsi; gözəl Nərgizin suda olan əksinə vurulub gülə çevrilməsi; Atlasın dağa çevrilməsi; Akteonun Artemisi paltarsız görəndən sonra onun marala çevrilməsi; qarğanın tüklərinin ağ rəngdən qara rəngə dönməsi; bayquşa, qartala, sağsağana, bülbülə, qaranquşa, ilana, suya, bulağa, ağaca və s. çevrilmələr) verilmişdir. Bu motiv dünya, həmçinin Azərbaycan şifahi və yazılı ədəbiyyatına böyük təsir göstərmiş, Frans Kafkanın "Çevrilmə", həmçinin Azad Qaradərəlinin "Ulartı" və s. kimi əsərlərin yaranmasında mühüm rol oynamışdır.

Çevrilmə motivi ilə bağlı ən böyük beynəlxalq təsnifat S.Thompson tərəfindən hazırlanmış və "Motif-İndex of Folk Literature"[3] adlı əsərində yer alan bölgüdür. Bu kataloqda çevrilmə motivi "Qadağa" (C0-C980 - Tabu) və "Sehr" (D0-D2199 - magic) bölmələrində qruplaşdırılmışdır. Qeyd etmək lazımdır ki, kataloqda çevrilmə motivi ilə bağlı verilmiş bir çox süjetlər Azərbaycan folklor mətnlərində mövcuddur, dissertasiyanın strukturuna uyğun olaraq zəruri hallarda qarşılıqlı müqayisələr aparılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini Azərbaycan folklorunun, əsasən, epik növünə daxil olan nümunələr (miflər, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar) və digər növlərə dair mətnlər təşkil edir. Bundan başqa, Azərbaycan folklor mətnləri ilə yanaşı, türk xalqlarının və digər xalqların folklor mətnlərində olan çevrilmələrə də müraciət edilərək, müqayisəli təhlillər aparılmışdır.

---

[2] Ovidius. Dönüşümler // Çeviren: İsmet Zeki Eyuboğlu / – İstanbul: Payel yayınevi, – 1994. – 421 s.

[3] Thompson, S. Motiv Index of Folk Literature// 6 c., Bloomington, 1955-1958, vol. I / – Copenhagen, 1955. https://ia800408.us.archive.org/30/items/Thompson2016MotifIndex/Thompson_2016_Motif-Index.pdf

Tədqiqatın predmetini isə Azərbaycan folklorunda mifik-kosmoqonik çevrilmə formulları, mistik metamorfozların, o cümlədən ümumi çevrilmələrin müxtəlif şəkil və formalarının öyrənilməsi, araşdırılması məsələləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Dissertasiya işinin əsas məqsədi "Azərbaycan folklorunda çevrilmə motivi" probleminin əsaslarının araşdırılması, yəni ilkin təsəvvürlərlə yanaşı, çevrilmələrin mövcud olduğu bütün mətnlərdə onların dəqiqləşdirilməsi, xarakteristikasının izah olunması, yaradılış aktının gerçəkləşməsindəki rolu və çevrilmələrin baş verməsinə səbəb olan meyarların müəyyənləşdirilməsidir.

Bu məqsəd aşağıdakı üç əsas vəzifə ilə bağlı müvafiq ətraflı araşdırılmanın aparılmasını tələb edir:

1. Çevrilmənin mifik yaradılış formulu kimi tədqiq edilməsi:

Bu, folklorda çevrilmə motivinin mahiyyəti, funksiyası, tipləri, çevrilmə formulunun mifik yaradılış vasitəsi olması, çevrilmələrdə transformativ keçidlər, göy cisimlərinin çevrilmə yolu ilə yaradılışının tipləri və şəkilləri, zoomorfik çevrilmələr, bitkilər aləminin çevrilmə yolu ilə yaradılışı, predmetlər dünyası və təbiət obyektlərinin yaradılışındakı çevrilmələrin tədqiqini zəruri edir.

2. Folklorda mistik çevrilmələrin araşdırılması:

Bu zaman mifik varlıqlara çevrilmə, dönərgəlik (animistik çevrilmə), fövqəlvarlıqlara çevrilmə, şaman/dərviş çevrilmələri, tilsim (mistik çevrilmə), şaman/dərviş çevrilmə formullarının şəkil və üsulları sistemləşdirilərək təhlil olunur.

3. Folklorda libasdəyişmə, cilddəyişmə və cinsdəyişmə yolu ilə baş verən çevrilmə motivlərinin aydınlaşdırılması:

Buraya libasdəyişmənin formaları, üsulları və epik funksiyası, cilddəyişmənin keçid mərasimləri ilə bağlı formul olması, folklorda travestik çevrilmələrin (cinsdəyişmənin) forma və üsullarının öyrənilməsi kimi məsələlər daxildir.

**Tədqiqat metodları.** Dissertasiya işinin mövzusu çevrilmə motivinin folklorşünaslıqda nəzəri cəhətdən izah edilməsi ilə yanaşı, onun mətnlərdə işlənmə formasına, üsuluna, çevrilməyə səbəb olan vasitələrin təsbitinə yönəldilmişdir. Şifahi xalq ədəbiyyatı

nümunələrindən toplanmış çevrilmələr kataloqlaşdırılaraq qruplaşdırılmışdır. Nümunələrin qruplaşıdırılaraq tədqiqi prosesi problemlərin müəyyənləşdirilməsi, fərziyyələrin formalaşdırılması və toplanmış faktların qiymətləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyada ümumiləşdirmələr və aydınlaşdırmalar aparılarkən sitat gətirmədən istifadə edilmiş, beləliklə, müqayisəli təhlil, həmçinin idrak (tədqiqatlar) metoduna müraciət olunmuşdur. Eyni zamanda, dünya folklorunda çevrilmə motivinin işlənməsi və tədqiqi ilə bağlı keçdiyi inkişaf yolu araşdırılarkən tarixi-müqayisəli və müqayisəli-tipoloji tədqiqat metodları tətbiq olunmuşdur. Problemin həlli çevrilmə motivinə tarixi-epoxal kontekstdə nəzər salmağı, müqayisəli yanaşmanı və tipləşdirməni tələb edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində elmi nailiyyət hesab edilə bilən aşağıdakı əsaslandırılmış yeni nəzəri müddəalar müdafiəyə çıxarılır:

1. Folklorda çevrilmə motivi epik folklor süjetləri üçün xarakterikdir.

2. Çevrilmə mətnlərdə obrazların şəklini, başqa sözlə, özünün xarici simasını dəyişdirməsi, bir varlıqdan digər varlıqlara çevrilmə, bir cilddən digərinə düşmələr şəklində baş verir, sözügedən hadisə elmi ədəbiyyatlarda həm də metamorfoza adlandırılır.

3. Çevrilmələr şamançılıqda (qam-şaman/dərviş) mediasiyadır, yəni iki dünya arasında keçid üçün şəkildəyişdirmə hadisəsidir.

4. Çevrilmə epik mətnlərdə trikster obrazların özünəməxsus davranışlarından biri hesab olunur.

5. Dönərgəlik - çevrilmənin əsas formalarından biri olmaqla, personajın sehrli (magik) şəkildə əvvəlki görünüşünə müvəqqəti qayıtmasıdır.

6. Çevrilmələr həm də kosmoqonik yaradılışa xidmət edir.

7.Çevrilmə üçün xarakterik olan formalardan biri libasdəyişmədir.

8. Çevrilmələr ovçuluq maskalanması kimi (ritual-mərasim) özünü göstərir.

9. Çevrilmə - totemist, animist konsept kimi (mifik personajların zooantropomorfik təbiəti) nümunələrdə əks olunur.

10. Çevrilmə inisiyasiya ilə bağlı mexanizm kimi mətnlərdə personajın ölüb-dirilməsi, statusdəyişməsi formasında təzahür edir.

11. Çevrilmə – mətnlərdə yalançı nişanlılıq kimi təsadüf olunur. Azərbaycan folklor nümunələrində "möcüzəli ər və arvad", "yalançı nişanlı" kimi süjetlər də çevrilmələrin meydana gəlməsində mühüm rol oynayır.

12. Travestizm – folklor mətnlərində travestik (cinsdəyişmə) çevrilmələr.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində Azərbaycan folkloru təhlilə cəlb edilərək, çevrilmə motivi ilə bağlı bir çox elmi yeniliklər əldə edilmişdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

– Çevrilmə motivinin semantik nüvəsinin mifik kosmoqoniya ilə bağlı olması və çevrilmənin yaradılış formulunun semantik əsasları müəyyən edilmişdir;

– Elmi-nəzəri ədəbiyyatlar və folklor mətnləri üzərində aparılmış təhlillər əsasında çevrilmə motivinin epik-funksional mahiyyəti müəyyənləşdirilmiş, tipləri və formaları sistemləşdirilmişdir;

– İnsanların yaradılışında mifik çevrilmə formulunun funksiyası müəyyənləşdirilmiş, bu zaman baş verən transformativ keçidlərin semantikası öyrənilmişdir;

– Göy cisimlərinin çevrilmə yolu ilə yaradılışının tipləri və onların şəkilləri müəyyənləşdirilərək sistem halında öyrənilmişdir;

– Zoomorfik çevrilmələrin tipləri, formaları və semantikası öyrənilərək sistem halına gətirilmişdir;

– Bitkilər aləminin çevrilmə yolu ilə yaradılışının tipik xüsusiyyətləri üzə çıxarılmışdır;

– Predmetlər dünyası və təbiət obyektlərinin yaradılışındakı çevrilmələr sistemləşdirilmiş və semantik xüsusiyyətləri müəyyənləşdirilmişdir;

– Mifik varlıqların çevrilməsi sistemləşdirilmiş, semantik özünəməxsusluqlar müəyyənləşdirilmişdir;

– Dönərgə çevrilmələrin tipləri və formaları sistemləşdirilmişdir;

– Fövqəlvarlıqlara çevrilmə təhlilə cəlb olunmuş, faktlar ümumiləşdirilərək sistemləşdirilmişdir;

– Dərviş çevrilmələrinin şamanizmlə bağlılığı aşkar edilmiş və bu çevrilmələr ilk dəfə olaraq "şaman/dərviş çevrilmələri" adı altında tövsif və təhlil olunmuşdur;

– Şaman/dərviş çevrilmə formullarının şəkil və üsulları sistemləşdirilmişdir;

– Tilsimləmənin şaman qamlaması ilə əlaqəsi aşkar edilmiş və tilsim mistik çevrilmə formulu kimi tədqiq olunmuşdur;

– Libasdəyişmənin formaları, üsulları və epik funksiyası müəyyənləşdirilmişdir;

– Cilddəyişmə ilk dəfə olaraq keçid mərasimləri ilə bağlı formul kimi tədqiq olunmuşdur;

– Travestik çevrilmələrin (cinsdəyişmənin) forma və üsulları ilk dəfə tədqiqə cəlb olunaraq semantikası üzə çıxarılmışdır və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti folklor motivlərinin öyrənilməsi ilə bağlı gələcək araşdırmalarda onun elmi nəticələrindən istifadə olunması imkanları ilə şərtlənir. İşin praktiki əhəmiyyəti isə ondan Azərbaycan ali məktəblərinin filologiya fakültələrində bakalavriat və magistratura proqramları üzrə folklorun tədrisi prosesində praktiki elmi vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tövsiyə edilən Azərbaycanın və eləcə də müxtəlif xarici ölkələrin elmi toplu və dövri elmi nəşrlərində məqalə və tezis şəklində dərc olunmuş, həmçinin yerli və beynəlxalq konfranslarda oxunmuş məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 25 fevral 2014-cü il tarixli iclasında (2 sayı iclas protokolu) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Filologiya problemləri üzrə

Elmi Şurasının 18 may 2017-ci il tarixli iclasında (5 saylı iclas protokolu) təsdiq edilmişdir.

**Tədqiqatın strukturu və həcmi:** Dissertasiya işi giriş (12890), I fəsil (132116), II fəsil (78641), III fəsil (58012), nəticə (8688) və Ədəbiyyat siyahısından ibarət olmaqla, ümumi həcmi 290347 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, həmçinin ümumi həcmi haqqında məlumatlar verilir.

Dissertasiyanın **"Çevrilmə mifik yaradılış formulu kimi**" adlanan birinci fəsli iki paraqrafdan ibarətdir: "Folklorda çevrilmə motivi: mahiyyəti, funksiyası və tipləri" və "Çevrilmə formulu mifik yaradılış vasitəsi kimi", ikinci paraqraf beş bənddən ibarətdir.

Birinci fəslin **"Folklorda çevrilmə motivi: mahiyyəti, funksiyası və tipləri"** adlanan birinci paraqrafında göstərilir ki, çevrilmə motiv kimi Azərbaycan folklorunda zəngin tip və formalara malikdir. O, əsasən, epik folklor mətnləri üçün xarakterik motivdir və metamorfoza (şəkildəyişmə) kimi təzahür edir. Bu motivin tədqiqi ona ilk növbədə mifoloji semantika kontekstində yanaşmanı tələb edir, çünki çevrilmə motivinin əsasında mifik düşüncəyə xas olan çevrilmə formulu dayanır. Bu cəhətdən çevrilmə motivini mifoloji kontekstə gətirmədən onun semantikasını düzgün tədqiq etmək mümkün deyildir.

Dissertasiyada epik nümunələrdə mövcud olan çevrilmələrlə yanaşı, mərasim folklorunda, xalq mahnılarında (*"Qalanın dibində bir daş olaydım, Gələnə-gedənə yoldaş olaydım"* [4] *)*, bayatılarda (*Əzizim dağı düzə, Saçların dağıt üzə. Qorxuram bir ah çəkəm,*

---

[4] Azərbaycan folkloru antologiyası. I cild. – Naxçıvan folkloru / tər. ed. M.Cəfərli, R.Babayev – Naxçıvan, –2009. –541 s., –s.426.

*Döndərəm dağı düzə*[5]*)*, oxşamalarda, əzizləmələrdə *("Qızım qızıla dönübdü, Xəbəri yox oğlanların", "Sən məhtəpdən gəlincə, Özümü daşa döndərim"*[6]*)*, paremilərdə *(məsələn, daşa dönmək; itə (canavara, tülküyə) dönmək; şiri-nərə dönmək; ala qarğa bülbül olsa, gülün qədrini nə bilər; oğlun oldu qızıldı, adaxlandı gümüşdü, evləndi misdi, ataynan ana pisdi və s.)*, inanclarda *("Bir əjdaha yüz il ömür eləsə, o dönür olur insan. Ya qız, ya oğlan"* [7] *)*, qarğışlarda ("*Keyiklərin qaçır sənin, Qazlıq dağı; Qaçar ikən qaçmaz olsun, daşa dönsün*"[8]) və s. işlənən çevrilmələr tədqiq olunmuş, onun tipləri haqqında məlumat verilmişdir.

Folklorda çevrilmə ilə əlaqədar istifadə edilən "dönmə" və "dəyişmə" terminləri arasında fərqlər vardır. Nümunələrdə sözünü tutmayan, ədalətsizlik edən insanların dönməyə məruz qaldığını görürük. Məsələn, qoyun qurban kəsəcəyini əhd edən çobanın onun yerinə bit, birə, gənə, it və s. qurban etməsi və bu hiyləsi nəticəsində özünün, bəzən də sürüsü ilə birgə daşa dönməsini görürük. Bu cür dönmələr haqsızlıq (ədalətsiz qərar vermə) və ya verilən vədin yerinə yetirməməsinin nəticəsi olaraq cəza qismində qarşıya çıxır. Bəzi nümunələrdə insanlar cəzalandırılaraq qurbağaya, ayıya, kirpiyə və digər heyvanlara dönürlər. Bir çox mətnlərdə qəhrəmanlar çətin vəziyyətlə qarşılaşdığı zaman daş və ya quş olmağı diləyir və istədikləri gerçəkləşir. Qeyd olunmalıdır ki, belə dönmələr özündə yenidən əvvəlki vəziyyətə qayıtmanın mümkünsüzlüyünü ehtiva edən çevrilmələrdir. "Dəyişmə" anlayışı isə dönmənin əksinə, çox vaxt formaya aid bir xüsusiyyət olaraq istifadə edilir. Beləliklə, dəyişmə məzmun və ya özünün eyni qalması şərti ilə məkan və zamanda baş verən dəyişiklikdə özünü göstərir ki, buna qəhrəmanların müvəqqəti

---

[5] Azərbaycan folkloru antologiyası. I cild. – Naxçıvan folkloru / tər. ed. M.Cəfərli, R.Babayev – Naxçıvan, –2009. –541 s., –s.12, s.367.

[6] Qarabağ: Folklor da bir tarixdir (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). III kitab / tərt. ed. İ.Rüstəmzadə – Bakı: Elm və təhsil, – 2012. –s.416.

[7] Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası. –Bakı: Çaşıoğlu, – 2004. – s.45.

[8] Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər / – Bakı: Öndər nəşriyyat, – 2004. – s.182.

olaraq müxtəlif şəxslərin, əşyaların cildinə girməsi nümunə göstərilə bilər[9].

L.Vinoqradova bu motiv haqqında yazır: *"Çevrilmə – canlı varlığın, yaxud əşyanın öz cildini, zahiri görkəmini, ipostasını dəyişmə qabiliyyəti, başqa sözlə, digər bir varlığa, bitkiyə, əşyaya, daşa və s. çevrilmə imkanı haqqında xalq inamlarının əks olunduğu folklor motividir"*[10].

Burada "çevrilmə" anlayışının üç cəhəti öz əksini tapmışdır:

a) Çevrilmə – folklor motividir;

b) Bu motivdə xalqın mifik inancları inikas olunur;

c) Çevrilmənin mahiyyəti zahiri görkəmi dəyişmə yolu ilə başqa bir varlığa keçməkdir.

V.Propp mediasiya çərçivəsində çevrilməni ruhun çevrilməsi, S.Neklyudov isə bu prosesi ruhun müxtəlif varlıqlarda öz əksini tapması kimi şərh etmişdir. Dönərgəlik və ya don dəyişdirmə epik mətnlərin dilində təfsilata varmağa gərək qalmadığı yerlərdə, yalnız, "oldu" (məsələn, "...quş olub...") sözü ilə ifadə oluna bilir. Belə ki, dönərgəlik motivi ənənəvi folklor bədii təfəkkürünün struktur elementi olaraq, öz qaynağı etibarilə mifoloji düşüncədən gələn bir çox əski görüşlər və təsəvvürlərlə bağlıdır[11].

Burada "çevrilmə" birmənalı şəkildə mifik mənşəyə malik anlayış kimi səciyyələndirilmişdir.

S.Sakaoğlu "şəkil dəyişdirmə nədir" sualına belə cavab vermişdir ki, bir əfsanədə mövcud olan canlı və cansız ünsürlərin bir üstün güc tərəfindən cəzalandırılması və ya fəlakətdən xilas edilməsi üçün o andakı şəkillərindən daha fərqli bir şəkilə çevrilməsidir. Müəllifin bu fikrində "çevrilmə" anlayışı epik süjet kontekstində həm zahiri şəkildəyişmə, həm də "səbəb-nəticə" formulunun "nəticə"

---

[9] Paraqrafda əldə olunmuş nəticələrin çapı haqqında bax: Əliyeva, Ə. Azərbaycan folklorunda çevrilmə motivi (Problemin qoyuluşu). "Dədə Qorqud". Elmi-ədəbi toplu. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2016/2, s. 166-175.

[10] Виноградова Л.Н. Превращение. Из словаря "Славянские древности» // Славяноведение. № 6, 2004, с. 67-70.

[11] Пропп В. Я. Исторические корни волшебной сказки. Ленинград: Издание Ленинградского Университета, 1986, с. 111.

ünsürü kimi səciyyələndirilmişdir. Dəyişikliyin əsas səbəbi cəzadır. Fəlakətdən və ya sonu fəlakətlə nəticələnəcək hər hansı bir təhlükədən xilas olmaq isə ikinci dərəcəli məsələdir[12].

Çevrilmə, eyni zamanda metamorfoza termini ilə də ifadə olunur. Metamorfoza yunanca "meta" - sonra, "morphe" - şəkil, forma; fransız dilində "metamorphose", ingilis dilində "metamorphosis", alman dilində "metamorphse" şəklində istifadə olunur. Türkiyə türkcəsində "başqalaşmaq" mənasında istifadə olunan çevrilmə başqa bir varlığa dönmək, dəyişmək, fərqlilik qazanmaq, eləcə də forma dəyişmək, "istihalə etmək"[13] mənasında işlənir.

P.N.Boratav yazır: *"metamorfoza insanların, heyvanların, bitkilərin, cansız varlıqların öz xüsusiyyətlərini itirib birindən digərinə keçməsi; cansız varlığın canlanması, canlı varlığın cansız maddə halına keçməsidir"*[14].

Bu fikirlərdən aydın olur ki, "metamorfoza" termini hərfi mənada forma/şəkil dəyişmə deməkdir, mifologiya ilə bağlı anlayışdır və mahiyyətcə "çevrilmə" termini ilə eynidir[15].

Dissertasiya çərçivəsində çevrilmə motivi ilə bağlı folklor nümunələri və elmi ədəbiyyatlar üzərində aparılmış ilkin təhlil nəticəsində aşağıdakı qənaətlərə gəlinmişdir:

*Folklorda çevrilmə motivi epik folklor süjetləri üçün xarakterikdir.*

Motiv, bildiyimiz kimi, həm yazılı ədəbiyyat, həm də folklor mətnləri üçün səciyyəvi olan elementdir. Süjeti təşkil edən ən sadə komponentlərdən, ünsürlərdən biridir. Süjet motivlərin kompleksidir.

A.Zaxarkin motiv ilə bağlı qeydlərində ilk öncə onu işlək dairədən çıxmış və "köhnəlmiş termin" hesab etsə də, zaman göstərdi

---

[12] Sakaoğlu S. Anadolu-Türk Efsanelerinde Taş Kesilme Motifi ve Bu Efsanelerin Tip Kataloğu. Ankara: Ankara Universitesi Basımevi, 1980, s. 29.

[13] Almalı, M. Eski Uyğur Türk Metinlerinde Metamorfoza // Çevrimiçi Tematik Türkoloji Dergisi.Yıl IV, –Sayı 2-1, 2012. –s.2-34.

[14] Boratav, P.N. 100 Soruda Türk Folkloru (İnanışlar, Töre ve Törenler, Oyunlar) / – İstanbul: Gerçek yayınevi, –1973. –s.62

[15] Əliyeva, Ə. Miflərdə çevrilmə epik formul kimi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, – Bakı: – 2016/1 (48), – s. 155-161.

ki, termin nəinki istifadədən çıxmadı, əksinə geniş yayıldı. O, bədii ədəbiyyatda motivlə bağlı yazır ki, motiv təhkiyənin ən kiçik mənalı komponentini, bədii əsər süjetinin ən sadə tərkib hissəsini bildirən termindir[16]. Bu mənada çevrilmə də sabit, dayanıqlı struktur formulu kimi epik folklor mətninin motividir.

Motiv, əsasən, folklor süjetləri üçün xarakterikdir. Əslində, folklor süjetlərinin mahiyyəti onu təşkil edən motivlərlə müəyyənləşir, bu mənada motiv anlamı altında ən sadə informasiya vahidi başa düşülür. Motivlər həm təxəyyüldə, həm də məişət həyatı ilə əlaqədar yaranır. Motivin folklor süjetlərində funksiyaları genişdir, yəni mövzu cəhətdən zəngin, rəngarəng olması ilə yanaşı, zaman və məkan xüsusiyyətləri, dinamik və statikliyi onun epik mətnlərdə aparıcılığını bir daha göstərmiş olur. Buna görə, motiv hərəkətverici qüvvə olub, daim fikri, mətni inkişaf etdirir. "*Motiv ayrı-ayrı mətnlər səviyyəsində – stereotipin, sxemin gerçəkləşməsidir. Müasir elmdə motiv termininin bu iki səviyyəsini fərqləndirmək məqsədi ilə birinci səviyyə üçün "motifema", ikinci səviyyə üçün "allomotiv" terminləri təklif olunur"*[17].

"Motifema" subyektin və obyektin invariant münasibəti, konkret birliyidir, bu zaman, sxem – ümumiləşmə əsas götürülür.

"Allomotiv" isə sxem-ümumiləşmənin konkret mətnlərdə təzahür şəkli olub, subyekt-obyekt münasibətlərinin, ətraf aləmdəki digər hadisələrin, göstəricilərin mətnlərdə konkret reallaşmasıdır. Nəticədə, çevrilmə motivi bütün mətnləri, variantları əhatə edən, ümumiləşdirən sxem kimi motifemadır. Bu motifema konkret mətnlərdə fərqli şəkillərdə təzahür edir. Çevrilmə motivinin istənilən konkret təzahür şəkli allomotividir.

---

[16] Захаркин, А. Очерк «Мотив» / Словарь литературоведческих терминов. – Москва: Просвещение, – 1974. – с. 226

[17] Путилов, Б.Н. Очерк «Мотив» / Свод этнографических понятий и терминов. Народные знания, фольклор, народное искусство, вып. 4. – Москва: Наука, – 1988. – с. 83-84.

*Çevrilmələr şamançılıqda (qam-şaman/dərviş) mediasiyadır, yəni iki dünya arasında keçid üçün şəkildəyişdirmə hadisəsidir.*

Məlum olduğu kimi, şamanlar o biri dünyalarla əlaqəyə girə bilən varlıqlardır və bu mediasiya adlanır. Onlar mediasiya vasitəsi ilə göyə (tanrıların dünyasına), yaxud yeraltına (ölülərin dünyasına) gedə bilirlər. Göyə gedən şamanlar – ağ şamanlar, yeraltına gedən şamanlar isə - qara şamanlar adlanırlar. Ona görə şamanlar medumlar, meditorlar hesab olunurlar.

Yer altına, yəni ölülər dünyasına (xaos dünyasına) gedən şaman tanınmamaq üçün hökmən görkəmini, cildini, şəklini dəyişməli idi. Çünki şaman ölülər dünyasına xəstələnmiş insanın ruhunu tapıb yenidən özünə qaytarmaq üçün gedir. Əgər ölülər dünyasının sakinləri, yaxud qoruyucuları onun ölü yox, diri olduğunu bilsələr, onun özünü tutub burada saxlaya bilərlər. Odur ki, şaman cildini, görkəmini, şəklini dəyişib, özünü xaos dünyasının sakinlərinə oxşatmalıdır. S.Rzasoy xaosu ölülər dünyası hesab edir və bildirir ki, buraya ölmədən gəlmək mümkün deyildir, hətta diri olaraq xaos dünyasına daxil olan şamanlar/qəhrəmanlar buraya cildlərini dəyişərək ritual ölüm yolu ilə daxil olurlar[18].

M.Kazımoğlu yazır: *"Özünü gizlədərək başqa dona girməyin ən arxaik mənası qəhrəmanın dəyişib o dünya sakinlərinin görkəminə uyğun bir görkəm alması inamı ilə bağlıdır. O dünya sərhədinə çatan qəhrəman o dünyanın eybəcər sakinlərinin görkəmini qəbul edir ki, təhlükədən qoruna bilsin. Zahiri görünüşün, o cümlədən geyimin magik gücünə inam xalq arasında bu gün də yaşamaqdadır*[19] .

Hər iki müəllifin (S.Rzasoy və M.Kazımoğlu) yanaşmalarından məlum olur ki, çevrilmə arxaik mifik-magik, ritual-mifoloji görüşlərlə bağlıdır.

*Çevrilmə epik mətnlərdə trikster obrazların özünəməxsus davranışlarından biri hesab olunur:*

---

[18] Rzasoy, S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi / S.Rzasoy. – Bakı: Elm və təhsil, –2015. – 436 s., s.360.

[19] Kazımoğlu, M. Folklorda obrazın ikiləşməsi / M.Kazımoğlu. – Bakı: Elm, – 2011. – 228 s., –s.11.

Trikster – vahid bir obrazın konkret folklor nümunəsi daxilində bir-birinə ziddiyyət təşkil edən iki müstəqil obraz kimi gündəmə gəlməsi və ya müsbət xarakterli subyektin mənfi keyfiyyətlərinin də qabardılaraq təqdim olunmasıdır.

Bu hal epik mətnlərlə yanaşı, daha çox dastanlarda qabarıq şəkildə diqqət çəkir. Məsələn, "Koroğlu" dastanında əksər hallarda vuruşan, məğlubedilməz qəhrəman, igid kimi təqdim olunan Koroğlu həmin dastanın bəzi variantlarında hiyləgər obraz olaraq təqdim edilir ki, bu da onun bir çox müsbət xüsusiyyətləri ilə təzad yaradır.

Beləliklə, trikster obraz iki cür olur: birincisi odur ki, trikster əsas qəhrəmanla tam olaraq ziddiyyət, uyuşmazlıq təşkil edən, onun əksi olan müstəqil obrazdır; ikinci halda isə trikster vahid bir obrazın müsbət xarakterinin mənfi tərəfidir.

*Çevrilmələr həm də kosmoqonik yaradılışa xidmət edir.*

Yaradılış anlayışı elmdə yunanca "kosmos" (aləm) və "goneia" (doğulma, yaranma) sözlərindən meydana gələrək, "kosmosun, aləmin (dünyanın) yaranması" mənasını verən "kosmoqoniya" termini ilə ifadə edilir.

Azərbaycan miflərində, əfsanələrində, nağıllarında insanların, xüsusilə, qadınların, qız-gəlinlərin quşlara, daşlara, heyvanlara çevrilməsində, nəticədə digər varlıqların yaranmasında çevrilmə motivindən geniş istifadə edilmişdir: *"Gəlin başını yuyanda qayınatası içəri girir, gəlin utanır. Qız başında daraq quşa çevrilir. Amma uzağa uça bilmir"*[20] .

Çevrilmə burada kosmoqonik yaradılış hadisəsi olub, şanapipik quşunun yaranmasına səbəb olur. Gəlin abır-həyadan üzə çıxmaq istəmir, üzünü göylərə tutub yalvarır, özünün "quşa", "daşa" dönməsini arzu edir və istəyi həyata keçir. Mövcud analoji digər nümunələrdə çevrilmə subyektləri "Gəlin qayaları"na, daşa, daraq başında şanapipik quşuna, əlləri xınalı kəkliyə də çevrilirlər. Qızın şanapipiyə çevrilməsi birdəfəlik çevrilmədir. Buna görə, kosmoqonik yaradılış baş tutmuş olur.

*Çevrilmə üçün xarakterik olan formalardan biri libasdəyişmədir.*

---

[20] Azərbaycan mifoloji mətnləri / tərt. ed. A.Acalov – Bakı: Elm, –1988. –s.36.

Daha çox nağıllarda təsadüf olunan libasdəyişmə cilddəyişmə, paltardəyişmə, don dəyişmə olaraq da adlandırılır. Azərbaycan folklorundakı libasdəyişmələr çətin vəziyyətdən xilas olmaq, sevgilinin axtarışı və ona qovuşmaq, tapşırıqların icrası, məkrli insanların müəyyən olunması və xalqa zülm edənlərin cəzalandırılması, padşahların ölkələrindəki vəziyyəti öyrənmələri, eləcə də məcburən uzaq düşdüyü ailəsindən, məmləkətindən xəbərdar olmaq məqsədilə müxtəlif forma və üsullarla baş verir. Burada əsas məsələ qəhrəmanın öz kimliyini gizlətməsi, özünü fərqli ad altında təqdim etməsidir ki, bu da tanınmamağa xidmət edir.

*Çevrilmə – keçid mərasimləri ilə bağlı mexanizm kimi (ölüb-dirilmə, statusdəyişmə).*

İnisiasiya/keçid fərdin bir mərhələdən başqa bir mərhələyə keçidini təşkil edən mərasimdir. Bu mərasimlər fərdin həyatında müəyyən mərhələnin başa çatması və yeni mərhələyə keçməsi dövründə təşkil olunur. Məsələn, "Kitabi-Dədə Qorqud"da on altı yaşına çatmış fərd qəhrəmanlıq göstərib ad almalıdır. Bu qəhrəmanlığı göstərdikdən sonra ona advermə mərasimi təşkil olunur. Fərd bu mərasimdə sosial "adsızlıq" statusundan çıxaraq, adını və bəylik statusunu alır. Bu cəhətdən inisiasiya mərasimi, əslində, çevrilməni təşkil edir. Burada bütün hallarda çevrilmə baş verir.

*Çevrilmə – yalançı nişanlılıq kimi:*

Azərbaycan folklor nümunələrində "möcüzəli ər və ya arvad", "yalançı nişanlı" kimi süjetlər də çevrilmələrin meydana gəlməsində mühüm rol oynayır. Bu tip nümunələrdə çevrilmələr aşiqlərin düşməndən qaçmaq, qarşıya çıxan çətinliklərdən xilas olmaq məcburiyyətindən müxtəlif şəkillərə, canlı və cansız varlıqlara çevrilmələrində özünü göstərdiyi kimi, bəzən də paltardəyişmə ilə qəhrəmanın yerinə keçərək özünü yalançı nişanlı, deyikli kimi göstərən üçüncü bir obrazın hiyləsində özünü təqdim edir ("Ölü Məhəmməd", "Gülnar xanımın nağılı", "Əməmxiyar qızı" nağılı, "İncil Mərcanın nağılı" və s.).

*Folklorda travestik çevrilmələr (cinsdəyişmə):*

Travestik çevrilmələr özünü, əsasən, zərif cins nümayəndələrinin mistik qüvvənin, tilsimin və ya qarğışın təsiri altında düşmənə, eləcə

də şər qüvvələrə qarşı mübarizə zərurəti yarandığı hallarda güc-qüvvəti simvolizə edən kişi personajlara çevrilməsi formasında göstərir. Bəzi nümunələrdə isə bunun əksinə kişilər tanınmamaq üçün qadın libasından istifadə edərək, özlərini qadın kimi təqdim edirlər. Məsələn, Novruz bayramında, eləcə də bəzi rayonlarda Qurban bayramında oğlanların qız, qızların oğlan paltarı geyinərək rituallar icra etmələrini göstərə bilərik ki, bunlar əcdadlardan miras qalan ənənədir.

Birinci fəslin **"Çevrilmə formulu mifik yaradılış vasitəsi kimi**" adlı ikinci paraqrafında mifik düşüncədə yaradılışla bağlı mövcud olan bütün nümunələrdə mühüm rol oynayan çevrilmələr geniş tədqiq olunmuşdur. Qeyd olunmalıdır ki, hər şeydən öncə yaradılışın ümumi kosmoqonik sxemində xaosun kosmosa çevrilməsi əks olunur. Mifoloji düşüncədə yaradılış dünyanın müxtəlif səviyyələrini əhatə edir və insanlar ətraf aləmdə gördüyü bütün varlıqların meydana gəlməsinə bu metodu şamil etmişlər. Azərbaycan folklorunda çevrilmə motivi kosmoqonik yaradılış aktı kimi aşağıdakı bölgüdə tədqiq edilmişdir:

– İnsanların çevrilmə formulu yolu ilə yaradılışı;
– Göy cisimlərinin çevrilmə formulu yolu ilə yaradılışı;
– Heyvanlar aləminin çevrilmə formulu yolu ilə yaradılışı;
– Bitkilər aləminin çevrilmə formulu yolu ilə yaradılışı;
– Predmetlər dünyası, təbiət obyektlərinin çevrilmə formulu yolu ilə yaradılışı.

Bu bölgüyə əsasən, birinci fəslin ikinci paraqrafı beş bənddən ibarətdir: "İnsanların yaradılışında çevrilmə formulu: transformativ keçidlər"; "Göy cisimlərinin çevrilmə yolu ilə yaradılışı: tipləri və onların şəkilləri"; "Heyvanlar aləminin yaradılışı: zoomorfik çevrilmələr"; "Bitkilər aləminin çevrilmə yolu ilə yaradılışı"; "Predmetlər dünyası və təbiət obyektlərinin yaradılışında çevrilmələr".

İkinci paraqrafın birinci bəndi **"İnsanların yaradılışında çevrilmə formulu: transformativ keçidlər"** adlanır. Folklor nümunələri üzərində aparılan müşahidələr göstərir ki, insan, əsasən, üç transformativ keçid nəticəsində yaranır:

a) Torpağın (palçığın) insana çevrilməsi;

b) Heyvanın insana çevrilməsi;

c) İnsan görkəmli varlıqların müasir insana çevrilməsi.[21]

Yaradılışla bağlı olan bu nümunələr üçün ortaq cəhət kosmosun xaosa çevrilməsidir. *“Lap qabaxlar Allahdan başqa heç kim yoxuymuş. Yer üzü də başdan-ayağa suyumuş. Allah bu suyu lil eliyir. Sonra bı lili qurudup torpax eliyir. Sonra torpaxdan bitkiləri cücərdir. Onnan sonra da torpaxdan palçıx qəyirip insannarı yaradır, onnara uruh verir[22]”.*

Yaradılışın çevrilmə hadisəsi ilə bağlılığından bəhs olunan sözügedən kosmoqonik mifdə göstərilir ki, yer kürəsində başlanğıcda xaos (su) mövcud olmuş, sonra canlılar aləmi yaranmışdır. İnsanın yaradılışı torpağın palçığa, palçığın isə daha sonra insana çevrilməsi ilə izah olunur[23].

İkinci paraqrafın **“Göy cisimlərinin çevrilmə yolu ilə yaradılışı: tipləri və onların şəkilləri”** adlanan ikinci bəndində folklor mətnlərində işlənən göy cisimləri ilə bağlı nümunələr təhlil edilmişdir. Göy cisimlərinə aid olan miflər və əfsanələr dünyanı dərketmənin ən qədim formasıdır. İnsanlar onların yaradılması haqqında müxtəlif əhvalatlar uydurmuş və bunların əksəriyyətində çevrilmə motivi mühüm rol oynayır. Dissertasiyada göy cisimlərinin çevrilmə yolu ilə yaranmasının üç tipi nümunələrlə ətraflı izah olunmuşdur:

a) İnsanlardan yaranan göy cisimləri;

b) Göy cisimlərindən yaranan göy cisimləri;

c) Heyvanlardan yaranan göy cisimləri.

Tədqiqatın bu hissəsində Ayın, Günəşin, ulduzların çevrilmə yolu ilə yaranmasına diqqət edilmiş, mövcud görkəmlərinə

---

[21] Əliyeva, Ə. İnsanların yaradılışında çevrilmə formulu: transformativ keçidlər. Əlyazmalar yanmır, 2019, № 2 (9), s.184-191.

[22] Azərbaycan mifoloji mətnləri / tərt. ed. A.Acalov – Bakı: Elm, –1988. – s.35.

[23] Əliyeva, Ə. Miflərdə çevrilmə epik formul kimi. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu. / Ə.Əliyeva. – Bakı: Elm və təhsil, – 2016/1 (48). s. 155-161.

düşmələrində və yaranmalarında çevrilmə motivinin rolu tədqiq olunmuşdur. Folklor mətnlərində Ay, Günəş, uldazlarla bağlı kifayət qədər material mövcuddur.

Heyvana çevrilmə və ya heyvana dönmə folklor mətnlərində ən çox yayılmış növlərdən biridir. **"Heyvanlar aləminin yaradılışı: zoomorfik çevrilmələr"** adlanan üçüncü bənd aşağıdakı kimi sistemləşdirilərək tədqiqata cəlb olunmuşdur:

a) İnsanın heyvana çevrilməsi;

b) Heyvanın insana çevrilməsi;

c) Heyvanın heyvana çevrilməsi;

ç) Heyvanın cansız varlığa çevrilməsi;

d) Cansız varlığın heyvana çevrilməsi.

Heyvanlarla bağlı çevrilmələr öz əksini əfsanələrdə daha çox tapsa da, demək olar ki, Azərbaycan folklorunun bütün janrlarında heyvanlarla, təbiətlə bağlılıq mövcuddur. Heyvana çevrilmə və ya heyvana dönmə folklor mətnlərində ən çox yayılmış növlərdən biridir. Onları çevrilmələrin obyektlərini nəzərə almaqla iki qrupda tədqiq etmək məqsədəuyğundur:

a) Quşa çevrilmə;

b) Digər heyvanlara çevrilmə.

Dissertasiyada, həmçinin, tədqiqat işi çərçivəsində nümunələr əsasında tərəfimizdən aparılmış araşdırmaların kompleks təhlilinin ümumiləşdirilmiş nəticəsi olaraq, heyvana çevrilmələrin meydana çıxma səbəbləri də sistemləşdirilmişdir. Folklor mətnlərində tez-tez təsadüf olunan quşa çevrilmə motivi ayrıca tədqiq olunaraq, onun baş vermə səbəbləri müəyyənləşdirilmişdir:

1) Çətin vəziyyətdən xilas olmaq üçün quşa çevrilmə;

2) Sevgi ilə bağlı quşa çevrilmə əfsanəsi;

3) Utanma nəticəsində quşa çevrilmə;

4) Cəzalandırma nəticəsində quşa çevrilmə;

5) Sehr, tilsim nəticəsində quşa çevrilmə;

6) Qeyri-insani varlıqların quşa çevrilməsi[24] və s.

Digər heyvanlara çevrilmələr yeni bir heyvanın yaranması ilə yanaşı, həm də sadəcə, cilddəyişmə yolu ilə obrazın başqa bir heyvan görkəminə girməsi formasında özündə göstərir. Heyvanlara çevrilmə motivi, həmçinin totemist və animist görüşlərlə bağlıdır.

**"Bitkilər aləminin çevrilmə yolu ilə yaradılışı"** adlı dördüncü bəndlə bağlı aparılan tədqiqatlar zamanı Azərbaycan folklorunun bitkilərə çevrilmələrə aid nümunələrlə zəngin olduğunu nəzərə alaraq, onlar şərti olaraq iki qrupa bölərək tədqiqata cəlb edilmişdir:

a) Ağaca çevrilmələr;

b) Güllərə, otlara, kollara və s. çevrilmələr.

Mifoloji təsəvvürlərdə əksər bitkilərin yaradılışının əsasında insan dayanır, o, əsasən, gülə, eləcə də digər bitkilərə çevrilir. Əlbəttə, çevrilmə öz-özünə baş vermir: kosmik nizamın pozulması nəticəsində yaranan xaosun aradan qaldırılma üsulu kimi meydana çıxır. Bunun əsas səbəbini əxlaqi-etik münasibətlərlə izah etmək olar. Burada iki hal müşahidə olunur: 1. Çətin vəziyyətdən xilas olmaq; 2. Cəzalandırılma[25].

Birinci fəslin **"Predmetlər dünyası və təbiət obyektlərinin yaradılışında çevrilmə"** adlanan beşinci bəndində Azərbaycan folklorunun canlı varlıqların cansızlara, cansız varlıqların digər cansız əşyalara dönüşməsi, eləcə də təbiət obyektlərinin çevrilmələr nəticəsində yaranmasına dair folklor nümunələrindən bəhs olunur. Predmetlər dünyasının yaradılması ilə bağlı çevrilmələr çobanın və sürüsünün daşa, gəlinin qayaya, ərin, nişanlının qızıla, daxmanın gümüş dirəkli evə, saraya, qırx qızın Qırxbulağa, eləcə də iynəyə, xalçaya, çöpə və s. dönməsi, qızların göz yaşından Qız gölünün yaranması, oxun daşı yaralaması və daşın qəlbindən qan axması –

---

[24] Əliyeva, Ə. Azərbaycan folklorunda zooantropomorfik çevrilmə formulları. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, 2016/2 (49). Bakı, "Elm və təhsil", 2016, s. 110-117.

[25] Əliyeva, Ə. Azərbaycan folklorunda bitkilər aləminin çevrilmə yolu ilə yaradılışı motivi. Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransının materialları. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunur. Bakı, Azərbaycan Universiteti, 20 aprel 2018-ci il, s. 131-133.

daşın "Qanlı daş" adını qazanması kimi nümunələrdə özünü daha qabarıq şəkildə göstərir. Göstərilənlər, həmçinin coğrafi obyektlərə və hadisələrə: dağa, təpəyə, torpağa, dənizə, gölə, bulağa, çaya, qara, yağışa, qasırğaya, küləyə, ildırıma və göyqurşağına dönmələr, ümumilikdə, mifik yaradılış konsepsiyasının tərkib hissəsi kimi qiymətləndirilir.

Təbiət obyektlərinə və təbiət hadisələrinə çevrilmələri belə qruplaşdırmaq olar:

1) Daşa, qayaya çevrilmə;
2) Dağa, təpəyə və torpağa çevrilmə;
3) Dənizə, gölə, çaya, bulağa çevrilmə;
4) Qara, yağışa, küləyə, göyqurşağına və s. çevrilmələr.

Burada predmetlərə çevrilmələr qruplaşdırılmaqla yanaşı, çevrilməyə səbəb olan amillər nümunələrlə təhlil olunmuşdur[26].

Dissertasiyanın **"Folklorda mistik çevrilmələr"** adlanan **ikinci fəsli**ndə folklorda mistik çevrilmələr arxaik mifik-magik, ritual-mifoloji görüşlərlə bağlı tədqiqata cəlb olunmuşdur. Bu zaman sehrli qüvvələr daha çox iştirak edir. Bu çevrilmələr mifik varlıqların çevrilməsi, animistik çevrilmələr (dönərgəlik), fövqəlvarlıqlara çevrilmə, şaman/dərviş çevrilmələri kimi çevrilmə tiplərini əhatə edir. Bu fəsil dörd paraqrafdan, dördüncü paraqraf isə iki bənddən ibarətdir.

İkinci fəslin **"Mifik varlıqların çevrilməsi"** adlanan birinci paraqrafında daha çox Azərbaycan nağıllarında, eləcə də mif və əfsanələrində təsadüf edilən mifik-magik yolla baş verən çevrilmələrin araşdırılmasına yer ayrılmışdır. Burada qızın su pərisinə, pəriyə, göyərçinin pəri qıza, eləcə də dərvişin verdiyi sehrli almanı yeyən ananın doğulan uşağının əjdahaya çevrilməsi və s. bu kimi nümunələrdə mifik obrazların meydana çıxmasında çevrilmə motivinin rolu müəyyən olunmuşdur. Bu çevrilmələrin yaranması cəzalandırma və ya qarşıya çıxan hər hansı bir çətin vəziyyətdən xilas olma ilə bağlıdır.

---

[26] Aliyeva, A. Azerbaycan folklor metnlerinde taşa dönme // A.Aliyeva. Bengi Dünya Yörük-Türkmen Araştırmaları dergisi. Cilt: 2021, - Sayı:1, – s. 42-53

Dissertasiyada mifik obrazlar yaranış tipologiyasına görə iki qrupa bölünərək təhlil edilmişdir:

a) Mifik varlıq olaraq doğulanlar;

b) Sonradan mifik varlığa çevrilənlər[27].

İkinci fəslin **"Dönərgə çevrilmələr"** adlanan ikinci paraqrafında mənşəyi etibarilə ibtidai mifoloji görüş və təsəvvürlərlə bağlı olan, folklorumuzda geniş şəkildə öz əksini tapmış dönərgə çevrilmələr tədqiq olunmuşdur. Çevrilmə – eyni zamanda dönərgəlik, yəni obrazın öz ilkin şəklinə müvəqqəti qayıtması kimi təzahür edir ki, mifologiyada bu obrazın fövqəlqüvvənin təsiri altında müəyyən zaman intervalı çərçivəsində öz görkəmini, ipostasını itirərək daha öncəki formasına qayıtması, növbəti mərhələdə isə yenidən əks çevrilmə ilə son dəyişmədən öncəki görkəmini bərpa etməsini əhatələyən bir prosesdir.

C.Bəydili (Məmmədov) yazır: *"Dönərgəlik demonik varlıqların görünüşü və təbiətində özünü göstərməklə yanaşı, mifoloji strukturlu personajın öz cildini magik yolla dəyişdirməsi şəklində təzahür edir. Obrazın funksional səciyyəsində əsaslı yer tutan dönərgəlik demonik təbiətli olmanın özündən gələn bir keyfiyyət kimi xtonik varlıqların başlıca əlaməti olub, əslində onların ilkinliyi ilə bağlıdır"*[28] .

Bu məqam bir sıra folklor obrazlarının mifik semantikasını müəyyənləşdirməyə imkan verir. Məsələn, folklorda ilan-oğlan, ilan-qız (ilan-arvad), qurd-qadın, ceyran-qız, hal anası və s. kimi obrazlar vardır. Bunlar dönərgə, çevrilən obrazlar kimi çıxış edirlər. Bu obrazların əslinin (mifik başlanğıcının) müəyyənləşdirilməsi mühüm məsələdir. Məsələn, pəri qızları quş cildində olurlar. Bu halda onların ilkin mənşə etibarilə qız, yaxud quş olmaları meydana çıxır.

Dönərgə təbiətli varlıqlar üçün xarakterik olan əsas keyfiyyət onların hər iki dünyanın sərhədində dayanması, zoomorfik cizgilər

---

[27] Əliyeva, Ə. Azərbaycan mifik-bədii mətnlərində çevrilmə motivi. Azərbaycanşünaslığın aktual problemləri. Ümumimilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq elmi konfransın materialları. Bakı: Mürtəcim, 2017, 4-5 may 2017, s.171-173.

[28] Bəydili, (Məmmədov) C. Türk mifoloji sözlüyü / C.M.Bəydili. –Bakı, Elm, – 2003. –s.109.

daşıması və magik yolla öz görkəmlərini dəyişməsidir. Bu onların təbiətindəki xtoniklikdən irəli gəlir. Folklor nümunələrində mövcud olan dönərgə çevrilmələrin təhlili nəticəsində gəlinmiş qənaət dönərgəliyin yalnızca zahiri çevrilmə deyil, həm də psixoloji-emosional dəyişmə oduğunu söyləməyə əsas verir. Məsələn, qurdlaşan insanlar adamcıl olub, adamları yeyirlər. Onlar donları məhv edildikdən sonra yenə də insan təbiətinə qayıdırlar. Aparılan bu tip araşdırmalar dissertasiyanın elmi yeniliklərindən sayıla bilər[29].

İkinci fəslin **"Fövqəlvarlıqlara çevrilmə"** adlanan üçüncü paraqrafında fövqəlvarlıqlara çevrilmələr nümunələrə əsasında təsnif edilmişdir. Folklor nümunələrində qeyri-adi gücə malik olan obrazları iki sinifdə təsnifləşdirmək olar:

1. Anadan doğularkən bu keyfiyyətlərə malik olanlar ("Quş dili bilən İsgəndər", "Tacir oğlu", "Münəccim uşaq" və s. nağıl qəhrəmanları);

2. Müəyyən sınaqlardan sonra fövqəlvarlığa (fövqəlinsana) çevrilənlər.

Çevilmə formulu özünü ikinci halda göstərir. Adi insanın fövqəlvarlığa çevrilməsini folklor nümunələrinə əsasən, aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) Adi insanın heyvanların, quşların, bitkilərin, cansız əşyaların dilini bilən fövqəlinsana, loğmana çevrilməsi ("Ovçu Primin nağılı", "Dağyunusun xəzinəsi", "Quş dili bilən İsgəndər", "Sehrli ot", "Gülağanın nağılı" və s.);

b) Uşağın cadugərə oxumağa verilməsi və bütün sehrləri bilən dərvişə çevrilməsi ("Axvayın nağılı", "Oxxayla Əhmədin nağılı" və s.);

c) Eybəcər, şikəst, zəif doğulan uşaqların heyvanlar tərəfindən böyüdülməsi ("Simanın nağılı" və s.);

---

[29] Aliyeva, A. Azerbaycan Folklorunda Mifik Varlıklara Dönüşüm // I. Uluslararası Mersin Sempozyumu Bildiri Tam Metinleri Kitabi (cilt 4 / volume 4), –Mersin Üniversitesi, MerAk Mersin Akademi Danışmanlık Yayınları. –01-03 kasım 2018. – 411 səh.

ç) İnsanın sehrli əşyalar vasitəsilə və ya tilsimlə qeyri-adi gücə malik birinə çevrilməsi ("Qaraqaşın nağılı", "Şahzadə Mütalibin nağılı", "Paslı qılınc" və s.);

d) Uşaqların cinsi kamilliyə çatdığı zaman xüsusi mərasimlə pəhləvana çevrilməsi ("Məlik Məmməd və Məlik Əhmədin nağılı", "Şah İsmayıl" dastanı və s.)

Qeyd etmək lazımdır ki, bu qruplaşdırmalar, müxtəlif folklor mətnlərinin təhlili nəticəsində meydana çıxmış və dissertasiya işində bəndlərə aid olan nümunələr göstərilərək çevrilmələrin rolu izah olunmuşdur[30].

İnsanlar ətraf aləmi dərk etdikcə təbiətdə olan hər bir canlı obyektə xüsusi yanaşmış, onları kəşf etməyə çalışmışdır. Real aləmdə axtardıqları bütün sualların cavabının təbiətdə olduğuna inanan insanlar reallıqda olmasa da, təsəvvürlərində bütün aləmin sirrini bilən obrazlar yaratmışlar. Bu tip çevrilmə motivinin olduğu nümunələrdə adi adam bütün canlı və cansızların dilini bilən loğmana çevrilir.

İkinci fəslin **"Şaman/dərviş çevrilmələri"** adlanan dördüncü paraqrafı "Şaman/dərviş çevrilmə formullarının şəkil və üsulları", "Tilsim – mistik çevrilmə üsulu kimi" iki bənddən ibarətdir.

Şaman mifologiyasındakı inanca görə təbiətdə mövcud olan bütün varlıqların öz dilləri vardır və şamanın əsas vəzifələrindən biri bu dili bilməkdir. Şamanların bu bacarığı hər şeydən öncə müalicə məqsədi daşıyır. Şamanlara xas olan bu əsas xüsusiyyət nağıl qəhrəmanlarına da ötürülür. Nağıllarda qəhrəmanlar heyvanların, ətraf aləmin dilini sehr gücü ilə öyrənir və sonra onu öz övladlarına da ötürərək dərvişlik ənənəsini qoruyurlar. Nağılın sehrli, fantastik quruluşu və nağıl qəhrəmanlarının adi adamlardan fərqləndirici gücləri, xüsusiyyətləri şamanizmlə uyğunluq təşkil edir və onun bir çox xüsusiyyətləri nağılın strukturuna yerləşdirilir, eləcə də şamanın vəzifələri nağıl qəhrəmanlarına köçürülür. Qeyd edək ki, nağılların

---

[30] Aliyeva, A. Azerbaycan folklorunda Olağanüstü Varlıklara (Fövgelvarlıklara) Dönüşüm. 4. Uluslararası Akdeniz Sempozyumu. 22-24 ekim 2020, səh.323-333.

xüsusi mistik funksiyaya malik personajlarından olan ***dərvişlər, belə hesab edirik ki, şamanların transformativ törəmələridir.*** Ona görə də dərviş çevrilmələrini "şaman/dərviş çevrilmələri" adı altında öyrənməyi doğru hesab edirik.

Azərbaycan nağıllarında işlənən şaman/dərviş çevrilmələri, adətən, dərvişlər, sehrbazlar, küpəgirən qarılar, eləcə də nağıl qəhrəmanları tərəfindən oxunan dua, əfsun, sehr vasitəsilə reallaşır. Nağıllarda baş verən belə çevrilmələr müxtəlif şəkil və üsullarla baş verir:

– Sehr, əfsun oxumaqla baş verən çevrilmələr;

– Qoyulan qayda-qanunları pozmaqla baş verən çevrilmələr;

– Başqasının sirrini öyrənmək nəticəsində baş verən çevrilmələr.

Şaman/dərviş çevrilmə formullarının şəkil və üsulları çevrilmənin subyekt (çevrilən) və obyekti (çevrildiyi) baxımından üç qrup təşkil edir:

1. İnsanın heyvana və digər varlıqlara çevrilməsi;
2. Heyvanların insana çevrilməsi;
3. İnsanın insana çevrilməsi.

Mediasiya zamanı şamanların ən çox istifadə etdiyi üsul heyvan şəklinə girməkdir. Şaman/dərviş çevrilmələri zamanı quş, ilan, ceyran, dovşan, at, tülkü donları ən çox istifadə edilən formalardır.

İkinci fəslin dördüncü paraqrafının ikinci bəndi **"Tilsim-mistik çevrilmə üsulu kimi"** adlandırılır. Tipologiyasına görə şaman/dərviş xüsusiyyətlərini özündə ehtiva edən bu çevrilmələrin hamısında tilsim, sehr, cadu mühüm rol oynayır və onlar aşağıdakı kimi qruplaşdırılmışdır:

a) Fövqəltəbii hamiləlikdən doğulma yolu ilə çevrilmələr;

b) Qəhrəmanın göy-yerüstü-yeraltı dünyasına getməsi ilə bağlı çevrilmələr;

c) Ölüb-dirilmə nəticəsində baş verən çevrilmələr;

ç) Sınaq mərhələlərindən keçməklə baş verən çevrilmələr;

d) Qəhrəmanın mistik yolla don dəyişdirməsi;

e) Təbiətdə olan bütün varlıqların dilini bilmə çevrilmələri;

ə) Sehr və cadu ilə müalicə çevrilmələri.

Sirli, müəmmalı, anlaşılmaz, fövqəltəbii güclər vasitəsilə gerçəkləşən tilsim-mistik çevrilmə üsullarına daha çox nağıllarda rastlaşırıq. “Şahzadə Mütalib”, “Vəfalı at”, “Axvay”, “Üç bacının nağılı”, “Qaraqaşın nağılı”, “Bənidaş şəhərinin sirri”, “Məlik çoban”, “Nuşapəri xanımın nağılı” və s. nağıllarda tilsim-mistik yolla baş verən çevrilmələr dissertasiyada ətraflı tədqiqə cəlb olunmuşdur[31].

İkinci fəsildə aparılmış tədqiqatlar göstərdi ki, folklordakı bir qrup çevrilmələri ümumi çevrilmə faktlarından fərqləndirmək üçün “mistik çevrilmələr” adı altında öyrənmək mükündür. Bu cəhətdən mifik varlıqlarla bağlı çevrilmələr, dönərgə çevrilmələri, fövqəlvarlıqlara çevrilmə, o cümlədən şaman/dərviş çevrilmələri belə mistik çevrilmələrdəndir. Tədqiqat göstərdi ki, tilsimləmə şaman/dərviş çevrilmələrində əsas mistik çevrilmə üsullarından biridir.

Dissertasiyanın üçüncü fəsli **“Folklorda libasdəyişmə, cilddəyişmə və cinsdəyişmə yolu ilə çevrilmələr”** adlanır. Üç paraqrafdan ibarətdir: “Libasdəyişmənin formaları, üsulları və epik funksiyası”; “Cilddəyişmə keçid mərasimləri ilə bağlı formul kimi” və “Folklorda “travestik çevrilmələr”.

Folklor nümunələrində tez-tez təsadüf etdiyimiz çevrilmə formalarından biri libasdəyişmə (başqa adları ilə paltardəyişmə, dondəyişmə), cilddəyişmə və cinsdəyişmə hesab olunur. Çevrilmənin bu formalarına daha çox nağıllarda, dastanlarda, mərasim folklorunda, xalq oyun və tamaşalarında təsadüf olunur. Qeyd edək ki, Azərbaycan folklorşünaslıq tədqiqatlarında libasdəyişmə və cilddəyişmədən bəhs olunsa da, “travestik çevrilmələr” həm termin, həm də elmi problem kimi ilk dəfə dissertasiyada geniş tədqiq edilmişdir. Üçüncü fəslin birinci paraqrafında “Libasdəyişmənin formaları, üsulları və epik funksiyası” tədqiqata cəlb edilmişdir. Folklorşünaslıqda “libasdəyişmə”, həm də paltardəyişmə və don dəyişmə adları ilə də qeyd olunur. Bu terminlərdən hansının işlənməsinin bir fərqi yoxdur.

---

[31] Əliyeva, Ə. Folklorda şaman/dərviş çevrilmələrinin funksional semantikası. AMEA Filologiya və Sənətşünaslıq. 2019, № 2, s.215-219. ISSN: 2663-4368

Çünki burada çevrilmə bütün hallarda paltarı dəyişməklə baş verir. Libasdəyişmə, mahiyyətcə, şəklin və xarici görkəmin dəyişməsidir. Bu dəyişməyə məruz qalanın yalnız şəkli, rəngi, görüntüsü dəyişir, lakin onun kimliyi dəyişmir, geri dönüşümü də təmin olunur.

Folklor nümunələrindəki libasdəyişmələrdə insanlar çevrilmənin gerçəkləşməsi üçün rəngarəng üsul və vasitələrdən istifadə edir. Onlar aşağıdakılardır:

a) Tanınmamaq üçün başqa şəxsin cildinə girməklə baş verən libasdəyişmələr (“Baybörənin oğlu Bamsı Beyrək boyu”, “Koroğlu” dastanında “Dürətın itməyi”, “Koroğlu ilə Bolu bəy”, “Eyvazın Çənlibelə gətirilməyi” və digər qollar, “Tənbəl Əhməd” nağılı, “Nazik bədən” nağılı və s. );

b) Heyvan paltarı geyməklə baş verən libasdəyişmələr (“Basatın Təpəgözü öldürdüyü boy”, “Şah İsmayıl” dastanı, “Kəl Həsənin nağılı”, “Şahzadə Bəhram” nağılları və s.);

c) Sehrli əşyalar vasitəsilə və sehrli doğuluş nəticəsində baş verən libasdəyişmələr (“Oxbatmaz İsfəndiyar”, “Şahzadə Mütalibin nağılı” );

ç) Əvəzediciliklə baş verən libasdəyişmələr (“Gülnar xanım”, “Peşə dalınca”, “Lala və Nərgiz” nağılları və s.);

d) Silsilə şəklində baş verən libasdəyişmələr (“Məlik Cəmilin hekayəsi” nağılı);

e) Kişi, qadın paltarı geyinilməklə baş verən libasdəyişmələr (“Naşükür qız”, “Padşah oğlu, “Nazikbədən”, “Fərasətli keçəl” nağılları və s.);

ə) Şamanizmlə bağlı libasdəyişmələr (“İlan və qız”, “Əcəm oğlu İbrahim”, “Yusiflə Sənubər”, “Şəmsi Qəmər”, “Qızıl qoç” nağılları və s.);

f) Mərasimlərlə bağlı baş verən libasdəyişmələr (“Qodu-qodu”, “Xanbəzəmə” oyunları, “Kosa-kosa” tamaşası, eləcə də Novruz, Qurban bayramlarında və digər mərasimlərdə insanların libasdəyişmələri) və s.

Müşahidələr göstərir ki, mətnlərdə libasdəyişmə, əsasən, bu səbəblərdən baş tutur: İtmiş birini tapmaq üçün; sevdiyini axtarmaq üçün; sevdiyinə qovuşmaq xatirinə sınaqlardan çıxmaq üçün; çətin

vəziyyətdən xilas olmaq üçün; pislik edən, pis niyyətli insanları müəyyənləşdirmək üçün; verilən, tapşırılan bir işi görmək üçün; padşahların ölkədəki vəziyyəti öyrənmələri üçün; xalqa zülm edənlərdən intiqam almaq üçün; məcburiyyət nəticəsində uzaq düşdüyü ölkəsindən xəbərdar olmaq üçün.

Üçüncü fəslin **"Cilddəyişmə keçid mərasimləri ilə bağlı formul kimi"** adlanan ikinci paraqrafında folklorda qəhrəmanın sehrli qüvvələrin təsiri ilə və ya sehrli vasitələrdən istifadə edərək öz xarici şəklini, görkəmini dəyişməsindən bəhs olunur. Cilddəyişmə nağıllarda daha çox ovsunla bağlıdır və sakral mahiyyət kəsb edir. Paltardəyişmədə olduğu kimi, cilddəyişmədə də çevrilməyə səbəb olan əsas amillərdən biri qəhrəmanın tanınmamaq istəməsidirsə, bu, digər tərəfdən, qəhrəmanın xeyirxahlığı, ağılı, ədalətliliyinə görə ona sehrli qüvvələr tərəfindən təqdim edilmiş bir mükafatdır.

Cilddəyişmə həm də keçid mərasimlərinə aid çevrilmə formuludur. Folklorda keçid mərasimləri özünü daha çox nağıllarda, dastanlarda və bəzi mərasimlərdə göstərir. Məlumdur ki, nağıl janrı üçün xarakterik olan xüsusiyyətlərdən biri süjet boyu qəhrəmanın problemlərlə qarşılaşıb mübarizə aparması və sonda muradına çataraq nağılın xoşbəxt sonluqla bitməsidir. Qəhrəman çıxdığı bu yolda müxtəlif maneələr, problemlər ilə qarşılaşır və onların dəf edilməsi üçün apardığı mübarizədə haqqın, ədalətin, xeyirxahlığın, zəhmətin qələbə çalması qəhrəmanın mənəvi cəhətdən dəyişməsinə, yüksəlməsinə səbəb olur. Qəhrəmanın əvvəldən sona doğru uğurla keçdiyi bütün mərhələlərdə keçid mərasimləri özünü göstərir.

Qeyd edək ki, aparılan tədqiqatlar nəticəsində keçid mərasimlərinin, xüsusilə, inisiyasiya (qəbul) mərasimləri üç mərhələdə gerçəkləşdiyi müəyyən edilmişdir: uzaqlaşdırma, vəziyyət/hal dəyişimi və uyğunlaşma mərhələsi. Dissertasiyada hər bir mərhələ nümunələrlə ətraflı şəkildə tədqiq olunmuşdur.

Üçüncü fəslin **"Folklorda travestik çevrilmələr: cinsdəyişmənin forma və üsulları"** adlanan üçüncü paraqrafında çevrilmə motivinin növlərindən biri travestik çevrilmələr, başqa sözlə, cinsdəyişmə yolu ilə baş verən çevrilmələr araşdırılmışdır. Travestik çevrilmə öz etimologiyasını fransız dilində "paltardəyişmə" mənasını

verən “travestizm” sözündən götürməklə, folklor subyektinin paltardəyişməsi, yaxud görkəmdəyişməsi ilə müşayiət olunan, lakin son nəticədə həmin subyektin cinsdəyişməsi ilə məntiqi sonluq tapan bir prosesi özündə ehtiva edir.

Azərbaycan folklor nümunələrindəki travestik çevrilmələr məzmun və mahiyyət baxımından zəngin olmaqla özünü, əsasən, zərif cins nümayəndələrinin mistik qüvvənin, tilsimin və ya qarğışın təsiri altında düşmənə, eləcə də şər qüvvələrə qarşı mübarizə zərurəti yarandığı hallarda güc-qüvvəti simvolizə edən kişi personajlara çevrilməsi formasında göstərir. Eləcə də bunun əksini deyə bilərik: bəzi nümunələrdə kişilər tanınmamaq üçün qadın libasından istifadə edərək, özünü qadın kimi təqdim edir.

Nümunələr üzərində aparılan araşdırmalardan görünük ki, qəhrəmanlar əks cinsin paltarını geyinməklə xüsusi gücə və görünüşə sahib olurlar. Belə ki, qadın qəhrəmanların kişi paltarı geyinməsi nəticəsində onlar qeyri-adi gücə, qabiliyyətə malik olur, qəhrəmanlıq göstərərək düşməni məğlub edirlər, eləcə də kişi qəhrəmanların qadın paltarı geyinməsi nəticəsində onlara qeyri-adi gözəllik və qabiliyyət gəlir.

Dissertasiyada əldə olunan yeniliklərdən biri də travestik çevrilmələrin iradi və qeyri-iradi şəkildə baş verən proses qismində tədqiq edilməsidir. İradi çevrilmələr qəhrəmanların istəyi ilə baş tutan çevrilmələrdirsə, qeyri-iradi çevrilmələr qəhrəmanın istəyi və xəbəri olmadan baş verir. Belə ki, bəzi nümunələrdə personajlar bilavasitə tilsimin, sehrli vasitələrin və qarğışın təsiri altında cinsdəyişməyə məruz qalır ki, bu da onların iradəsindən asılı olmadan baş verən proses kimi qiymətləndirilməlidir. Cinsini dəyişən qəhrəman məkanını da dəyişir: kosmosdan xaosa adlayır. Bu zaman cinsdəyişmənin müxtəlif forma və üsulları həmin kosmos-xaos-kosmos sxemi üzrə keçidlərin ritual mexanizmi funksiyasını yerinə yetirir.

Dissertasiya işinin “**Nəticə**” hissəsində tədqiqatın elmi nəticələri ümumiləşdirilmişdir. Azərbaycan folklor mətnləri üzərində aparılmış tədqiqat göstərdi ki, çevrilmə – öncəliklə folklor motivi sayılır və öz mənşəyi etibarilə mifik yaradılış formuludur.

Çevrilmə motivinin semantik nüvəsinin mifik kosmoqoniya ilə bağlı olması və çevrilmənin yaradılış formulunun semantik əsasları müəyyən edilmişdir.

Mifik varlıqların çevrilməsi sistemləşdirilmiş, semantik özünəməxsusluqlar müəyyənləşdirilmişdir

Folklorda mövcud olan mistik çevrilmələr arxaik mifik-magik, ritual-mifoloji görüşlərlə bağlıdır.

Folklor mətnlərində tez-tez təsadüf edilən libasdəyişmə (paltardəyişmə, dondəyişmə) şəklin və xarici görkəmin dəyişməsi olub, dəyişməyə məruz qalanın yalnız şəkli, rəngi, görünüşü dəyişir, burada onun kimliyi dəyişmir, geri dönüşümü də təmin olunur.

Çevrilmələr şamançılıqda mediasiyadır, yəni iki dünya arasında ayinləri həyata keçirmək üçün keçid rolunu oynadığına görə şəkildəyişdirmə hadisəsidir. Nağılların mistik funksiyaya malik personajlarından olan dərvişlər şamanların transformativ törəmələridir.

Dönərgəlik isə mənşəyi etibarilə ibtidai mifoloji görüş və təsəvvürlərlə bağlı olub mifologiyada obrazın fövqəlqüvvənin təsiri altında müəyyən zaman intervalı çərçivəsində öz görkəmini dəyişməsidir.

Çevrilmə epik mətnlərdə trikster obrazların özünəməxsus davranışlarından biri hesab olub, keçid mərasimlərində ölüb-dirilmə (statusdəyişmə) və travestik (cinsdəyişmə) mexanizmidir.

**Dissertasiyanın əsas nəticə və yenilikləri müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1.Miflərdə çevrilmə epik formul kimi // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, – Bakı: – 2016/1 (48), – s. 155-161.

2.Azərbaycan folklorunda çevrilmə motivi (Problemin qoyuluşu) // "Dədə Qorqud". Elmi-ədəbi toplu, – Bakı: "Elm və təhsil" nəşriyyatı, – 2016/2, – s. 166-175.

3.Azərbaycan folklorunda zooantropomorfik çevrilmə formulları // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Elmi-ədəbi toplu, – 2016/2 (49), – Bakı: "Elm və təhsil", – 2016. – s. 110-117.

4.Azərbaycan mifik-bədii mətnlərində çevrilmə motivi // Azərbaycanşünaslığın aktual problemləri. Ümumimilli Lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş VIII beynəlxalq elmi konfransın materialları, 4-5 may 2017. Bakı Slavyan Universiteti. – Bakı: Mürtəcim, –2017, –s.171-173.

5.Azərbaycan folklorunda bitkilər aləminin çevrilmə yolu ilə yaradılışı motivi // Gənc tədqiqatçıların I Respublika elmi-praktik konfransının materialları. / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunur. – Bakı, Azərbaycan Universiteti, – 20 aprel, – 2018, – s. 131-133.

6.Azərbaycan nağıllarında genderlərarası keçid – travestizm // Gender problemi və müasir Azərbaycan, II Respublika elmi konfransının materialları. –Bakı, Azərbaycan Universiteti, – 23 noyabr, – 2018, – s. 53-56.

7.Azerbaycan ve özbek astral efsanelerinde dönüşüm motifi / Ўзбек Фольклоршунослиги Масалалари VIII китоб.Ўзбекистон Республикаси Фанлар Академияси Ўзбек тили, адабиёти ва фольклори Институти, Алишер Навоий Номидаги Давлат Адабиёт Музейи. –Ўзбекистон Республикаси Фанлар академияси: "ФАН" нашриёти, Тошкент, – 2018, – s. 162-170.

8.Azerbaycan Folklorunda Mifik Varlıklar // tezis. I Uluslararası Mersin Sempozyumu. Bildiri özetleri kitabı // Mersin Universitesi: Mersin Akademi Danışmanlık Yayınları, 01-03 kasım, – 2018. –s. 57.

9.Azerbaycan Folklorunda Mifik Varlıklara Dönüşüm // I. Uluslararası Mersin Sempozyumu Bildiri Tam Metinleri Kitabi (cilt 4 / volume 4), Mersin Üniversitesi, MerAk Mersin Akademi Danışmanlık Yayınları. –01-03 kasım, – 2018, – 411 s., s. 25-33.

10.Azerbaycan folklorunda metamorfoz dönüşümler// Makale / II. İKSAD Uluslararası Sosyal Bilimler Kongresi, 22-25 kasım, 2018, Gazientep, İKSAD Yayınevi 2.cilt, – 2018, s.882-888.

11.Azerbaycan folklorunda metamorfoz dönüşümler // Tezis. II. İKSAD Uluslararası Sosyal Bilimler Kongresi, Gazientep, İKSAD Yayınevi 2.cilt // 22-25 kasım, – 2018, – s.214.

12.Azərbaycan folklorunda cilddəyişmə keçid mərasimləri ilə bağlı formul kimi // Filologiya məsələləri. – Bakı, “Elm və təhsil” nəşriyyatı, – 2019, – №5, – s. 346-356.

13.Мотив трансформации в Азербайджанском фольклоре: постановка и теоретическое моделирование проблемы. Вестник. Серия филологическая //Хабаршы. Филология сериясы//Eurasian journal. Of philology: science and education. №2(174), Алматы «Казак университетi» 2019, s.12-19. Al-Farabi Kazakh National University ISSN 1563-0323.

14.Folklorda şaman/dərviş çevrilmələrinin funksional semantikası // AMEA Filologiya və Sənətşünaslıq, – 2019, № 2, – s.215-219.

15.İnsanların yaradılışında çevrilmə formulu: transformativ keçidlər // – Bakı: Əlyazmalar yanmır, – 2019. № 2 (9), – s.184-191.

16.Azerbaycan folklorunda Olağanüstü Varlıklara (Fövgelvarlıklara) Dönüşüm // 4. Uluslararası Akdeniz Sempozyumu. 22-24 ekim, – Akdeniz, – 2020, səh.323-333.

17.Azərbaycanda od çərşənbəsi ilə bağlı inamlar (Paltardəyişmə) // IV Uluslararası Nevruz İlmi Araştırmalar Sempozyumu, Tam metn kitabı // Qarabağ, Azərbaycan, – 18-21 mart, – 2021, s.407-412.

18.Azerbaycan folklor metnlerinde taşa dönme // Bengi, Dünya Yörük-Türkmen Araştırmaları Dergisi. – 2021. №1, – s. 42-53 // https://dergipark.org.tr/tr/pub/bengi/issue/65794

Dissertasiyanın müdafiəsi _____ ____________ ___ il tarixində saat ______AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR Prezidenti yanında Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat ____ __________ _____ il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:
Kağızın formatı:
Həcm:
Tiraj: